AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXSİ**

LDU
1992
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

*Lənkəran Dövlət Universitetinin Elmi Şurasının*
*"12" fevral 2025-cı il tarixli iclasında*
*(protokol № 04) təsdiq edilmişdir.*
*Rektor ____________ prof. Natiq İbrahimov*

# TƏHSİL PROQRAMLARININ (İXTİSASLARININ) MONİTORİNQİ STRATEGİYASI

**Lənkəran 2025**

# MÜNDƏRİCAT

Giriş........................................................................ 3
Təhsil proqramlarının (ixtisaslarının) monitorinqi........................................ 5
Keyfiyyət təminatı........................................................................ 5
Təhsil proqramları monitorinqinin hədəfləri........................................ 6
Təhsil proqramları monitorinqinin məqsədləri........................................ 6
Təhsil proqramı üzrə monitorinq meyarları........................................ 7
Monitorinq üzrə öhdəliklər........................................................................ 7
Təhsil proqramlarının monitorinqinin aparılması prosesi və mərhələləri........................................ 9
Yekun qərar........................................................................ 12

## GİRİŞ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə "Dövlət Təhsil Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet kimi elan olunmuş və təhsilalanların dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə tələbyönlü şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi daim diqqət mərkəzinə çəkilən mühüm vəzifə hesab olunmuşdur.

"Dövlət Təhsil Strategiyası"na uyğun olaraq təhsilalanlara hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə universitetin infrastrukturu, təhsilverənlərin və təhsilalanların bilik və bacarıqları inkişaf etdirilir. Bölgə və regionda təhsilin inkişafı üçün Publik Hüquqi Şəxs olan Lənkəran Dövlət Universitetində (bundan sonra Universitet) bütün sahələr, o cümlədən tədris sahəsi üzrə işlərin yüksək səviyyədə qurulması vacibliyini zəruri edir.

Təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqları ilə məhdudlaşmaması, təhsil həmçinin əldə olunan səriştə, etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaratması, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirməsi universitet üçün prioritet istiqamətlərdəndir.

Lənkəran Dövlət Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1991-ci il tarixli 319 saylı qərarı ilə Bakı Dövlət Universitetinin filialı kimi fəaliyyətə başlamış, Nazirlər Kabinetinin 23 iyul 1992-ci il tarixli 403 saylı qərarı ilə müstəqil Dövlət Universitetinə çevrilmişdir. 07 sentyabr 2024-cü il tarixdən Lənkəran Dövlət Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Lənkəran Dövlət Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilmişdir.

Universitetin müasir tələblərə cavab verən, zəruri avadanlıq və modern laboratoriyalarla təchiz olunmuş 3 tədris, 1 inzibati, oğlanlar və qızlar üçün hər cür şəraiti olan 2 yeni yataqxana binası, elmi kitabxana kompleksi, tədris-təcrübə bazaları, yardımçı təsərrüfatı, professor-müəllim heyəti üçün xidməti mənzillər, qonaq evi, hoteli və s. var. Universitetdə tədrisin keyfiyyətinin artırılması, təcrübələrin müasir tələblərə uyğun şəkildə təşkili, məzunların gələcək karyeralarının təşkili və idarəetmə strukturunda operativliyi təmin etmək məqsədilə yeni tədris strukturu yaradılıb.

Universitetdə 3 seriya üzrə "Elmi xəbərlər" jurnalı dərc olunur: "Humanitar elmlər", "Riyaziyyat və təbiət elmləri" və "Texnika və aqrar elmləri" elmi jurnalları ildə iki dəfə nəşr olunur. Son 5 ildə doktoranturaya qəbul olanların 82%-i elmi işlərini uğurla müdafiə edib.

Lənkəran Dövlət Universiteti Türkiyənin nüfuzlu universitetləri, Qazaxıstan, Özbəkistan, həmçinin Avropa ölkələrinin, o cümlədən Polşa, Macarıstan, Çexiya, Ukrayna və s. ölkələrin ali təhsil ocaqları ilə sıx əlaqələr qurub. Universitetdə təhsil alan tələbələrin sayı son 8 ildə 3 dəfə artıb.

Universitet iqtisadi sahələrin innovasiya-texnoloji inkişafında iştirak edərək regionun elmi-pedoqoji və mühəndis potensialının yüksəlməsinə şərait yaratmaqla regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsini təmin edən regional innovasiya sisteminin inkişafına köməklik göstərir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulan strateji istiqamətləri əldə rəhbər tutaraq Universitet infrastrukturunun, təlim-tədris və təhsil imkanlarının genişlədirlməsini həyata keçirməyə davam etdirir. Belə ki, müxtəlif strukturlar, o

cümlədən keyfiyyətin artırılması məqsədilə 2023-cü ildə Keyfiyyət Təminatı şöbəsi, 2024-cü ildə Keyfiyyət təminatı komissiyası və s. yaradılmışdır.

Lənkəran Dövlət Universitetində Keyfiyyət təminatının yüksəldilməsi, təhsil proqramlarının monitorinqinin mütəmadi aparılması, təhsil proqramları üzrə fəaliyyətin ölçülməsi məqsədilə "Təhsil proqramlarının monitorinqi strategiyası" yaradılmışdır. "Təhsil proqramlarının monitorinqi strategiyası" müvafiq olaraq "Dövlət Təhsil Strategiyası"na, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının KQ-05 nömrəli 30 sentyabr 2022-ci il tarixli "Ali təhsil müəssisələrinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na, Universitetin "Nizamnaməsi"nə, "Strateji inkişaf planı"na, "Keyfiyyət təminatı siyasəti sənədi"nə və digər qaydalar və normativ hüquqi aktlara istinadən hazırlanmışdır. "Təhsil proqramlarının monitorinqi satrategiyası" Universitetdə tədris metod və üsullarının monitorinqi, preventiv tədbirlərin qiymətləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı mexanizmi, o cümlədən monitorinq prosesinin mərhələlərini və bu prosesdə iştirak edən tərəflərin fəaliyyətinin təşkilini əks etdirir.

## TƏHSİL PROQRAMLARININ (İXTİSASLARIN) MONİTORİNQİ

"Təhsil proqramlarının monitorinqi (və ya "Monitorinq") strategiyası" Universitetin fəaliyyətinin Dövlət Təhsil Standartlarına uyğunluğunun, universitetdə səmərəli və müasir tələblərə uyğun tədris mühitinin yaradılmasının və onun fəaliyyətinin davamlı inkişafının təmin olunmasına xidmət edən monitorinq strategiyasıdır. Monitorinq həmçinin universitetin fəaliyyətinin keyfiyyət səviyyəsinin və onun keyfiyyət təminatı sisteminin effektivliyinin qiymətləndirilməsi prosesidir.

Monitorinq Universitetin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədi ilə aparılır və təhsil müəssisəsinin bir ixtisas (proqram) üzrə növbəti müddətdə fəaliyyətinin perspektivliyi üçün istiqamət yaradır. Universitetdaxili monitorinq keçirilməsi ilə təhsil proqramlarının akkreditasiya hazırlığı potensialını gücləndirir.

Təhsil proqramlarının monitorinqi zamanı müvafiq normativ hüquqi aktlarla yanaşı istinad ediləcək əsas qanunvericilik sənədləri aşağıdakılardır:

1. ***"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu;***
2. ***Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları;***
3. ***Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları;***
4. ***Ali təhsil pilləsinin dövlət standartı və proqramı;***
5. ***Lənkəran Dövlət Universiteti PHŞ-nin Nizamnaməsi;***
6. ***Lənkəran Dövlət Universitetinin Strateji İnkişaf Planı;***
7. ***Keyfiyyət Təminatı siyasəti sənədi;***
8. ***Keyfiyyət təminatı komissiyasının Əsasnaməsi;***
9. ***Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi;***

| **Monitorinq prosesinin əsas iştirakçıları** | | | | | |
|---|---|---|---|---|---|
| Universitet | Keyfiyyət təminatı komissiyası | Keyfiyyət təminatı şöbəsi | Proqram (ixtisas) üzrə məsul strukturlar | Təhsilverənlər | Təhsilalanlar |

## KEYFİYYƏT TƏMİNATI

Keyfiyyət təminatı komissiyası və Keyfiyyət təminatı şöbəsi Universitet rektorunun müvafiq əmrləri ilə yaradılmış, keyfiyyət təminatı sisteminin möhkəmləndirilməsi və uyğun strukturların monitorinqinin keçirilməsi, Elm və Təhsil Nazirliyinin Təhsildə Keyfiyyət Təminatı Agentliyi və Universitetin rektoru qarşısında hesabatlılığın təmin olunması istiqamətində fəaliyyət göstərir.

Keyfiyyət təminatı komissiyası və Keyfiyyət təminatı şöbəsinin fəaliyyətinin məqsədi Universitetdə effektiv keyfiyyət təminatı fəaliyyətini təşkil etməkdən, keyfiyyət nəticələri və əhatəliliyinə görə ölkədə qabaqcıl mövqe tutan təhsil sisteminin formalaşdırılmasından, müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərilməsindən ibarətdir.

Keyfiyyət təminatı komissiyası universitetdaxili keyfiyyət təminatı sisteminin möhkəmləndirilməsi məqsədilə yaradılmış komissiyadır. Keyfiyyət təminatı komissiyasının tərkibinə aşağıdakı şəxslər cəlb edilə bilər:

| Keyfiyyət təminatı komissiyasının tərkibinə cəlb edilə biləcək şəxslər | | | | |
|---|---|---|---|---|
| Təhsil üzrə mütəxəssislər | Regional idarə və müəssisələrin nümayəndələri | İxtisaslaşmış mütəxəssislər (İKT, maliyyə və s. sahələr üzrə) | Təhsilalanlar | İşəgötürənlər |

## TƏHSİL PROQRAMLARI MONİTORİNQİNİN HƏDƏFLƏRİ

Təhsil proqramları monitorinqinin hədəfləri "Dövlət Təhsil Strategiyası" və "Lənkəran Dövlət Universitetinin 2022-2030-cu illər üçün Strateji İnkişaf Planı"nda nəzərdə tutulmuş bəndlər üzrə formalaşdırılır:

- Universitetin təhsil tədqiqat-innovasiya mərkəzinə çevrilməsinə dəstək verən və rəqabətqabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının tətbiqi;
- Universitetdə təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsini təmin edən sistemin yaradılması;
- Təhsilin idarə olunmasının məlumat sistemləri və yeni hesabatverme modelinin yaradılması;
- Qabaqcıl Beynəlxalq təcrübəyə əsaslanaraq təhsil pillərinin bütün səviyyələrini əhatə edən qiymətləndirmə mexanizmlərinin yenilənməsi;
- Müasir tələblərə cavab verən və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun mövcudluğu;
- Universitetdə informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun olması;
- İstedadlı və sağlamlıq imkanları məhdud tələbələrin aşkarlanması;
- Universitetin maddi-texniki bazasının gücləndirilmək məqsədilə həyata keçirilən tədbirlər;
- Universitetin tədris-təcrübə bazasının və laboratoriyalarının təşkili vəziyyətinin yaxşılaşdırılması;
- Universitetdə elmi-pedaqoji kadr potensialının gücləndirilməsi;
- Universitetdə elm və tədrisin vəhdətini gücləndirmək, elmi-tədqiqat işlərinin gücləndirilməsi və nəticələrin tədris prosesinə tətbiq edilməsi;
- Universitetdə tədris-məsləhət (tyutor) və informasiya-məlumat xidmətlərinin təşkili və təkmilləşdirilməsi;
- Universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi;
- Universitet əməkdaşlarının və tələbələrinin sosial-məişət şəraitinin yaxşılaşdırlması;

## TƏHSİL PROQRAMLARI MONİTORİNQİNİN MƏQSƏDLƏRİ

Təhsil proqramlarının monitorinqi strategiyasının məqsədləri Universitətdə kadr hazırlığının, təhsil idarəetmə sisteminin və təhsil infrastrukturunun davamlı inkişafına istiqamət yaratmaqdır:

1. *Təhsil proqramlarının ümumi fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması*
2. *Hər bir ixtisas üzrə kadr hazırlığı potensialının və təhsilalanların say həddinin təkmilləşdirilməsinin müəyyən edilməsi*
3. *Kadr hazırlığı aparılan təhsil proqramlarının icra keyfiyyətinin monitorinqi*

4. *Təhsil proqramlarının fəaliyyəti haqqında hesabatın formalaşdırılması və təkliflərin hazırlanması*

## TƏHSİL PROQRAMLARI ÜZRƏ MONİTORİNQ MEYARLARI

1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu
2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması
3. Təhsil proqramı üzrə tədrisin təşkili
4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları
5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları
6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza
7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi
8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti
9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris
10. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi
11. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

## MONİTORİNQ ÜZRƏ ÖHDƏLİKLƏR

***Keyfiyyət təminatı şöbəsinin təhsil proqrmlarının monitorinqinin aparılmasına dair vəzifələri aşağıdakı kimidir:***

- Təhsil proqramlarının universitetdaxili monitorinqini həyata keçirmək;
- Monitorinqin keçirilməsi üçün müvafiq qaydalara uyğun Komissiyanın (Komissiyanın tərkibinin) yaradılması barədə təklifi rektora təqdim etmək;
- Monitorinq həyata keçiriləcək təhsil proqramları üzrə hazırlanmış sənədlərin və müvafiq hesabatların təhlilini aparmaq;
- Komissiya tərəfindən imzalanmış monitorinq nəticələrini Keyfiyyət təminatı komissiyasının və reqlamentə uyğun olaraq Elmi Şuranın müzakirəsinə çıxarılmasını təmin etmək;
- Təhsil proqramlarının monitorinqi (akkreditasiyası) ilə bağlı hesabat və arayışın Elmi Şurada müzakirəsindən sonra aşkarlanan nöqsanların həlli ilə bağlı tədbirlər planı hazırlamaq;
- Monitorinq prosesində bitərəf, obyektiv, qərəzsiz və dürüst olmaq;
- Təhsil proqramlarının monitorinqi ilə bağlı təhlillər, ümumiləşdirmələr aparmaq və hesabatları müzakirə etmək;
- Elmi Şuranın qərarından sonra göstərilən tövsiyə və göstərişlərin icrasına dair fəaliyyət planının icrasına nəzarət etmək;

***Keyfiyyət təminatı şöbəsinin monitorinq hüquqları:***

- Universitetdə daxili keyfiyyət təminatı fəaliyyətinin (təhsil proqramlarının) monitorinqini təşkil etmək, təhlillər aparmaq və onların təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;
- Monitorinq ilə bağlı müvafiq sənədləri əldə etmək;
- Monitorinq keçirilən strukturdan müsahibəyə dəvət olunacaq şəxslərin siyahısına, eləcə də görüşlərə dair təkliflər vermək;
- Təhsil proqramlarının icrasında maraqlı şəxsləri (tələbələr, məzunlar, müəssisənin professor-müəllim heyəti, işəgötürənlər və s.) müsahibəyə dəvət etmək;
- Monitorinq üçün zəruri olan əlavə məlumat, yaxud sənədlərin əldə edilməsinə dair rəhbərliyə müraciət etmək;

*Keyfiyyət təminatı şöbəsi monitorinq ilə bağlı aşağıdakı hərəkətləri yerinə yetirir:*

1. Keyfiyyət təminatı komissiyasının üzvləri üçün monitorinq prosesinin səmərəli təşkili ilə bağlı təlimlər, seminarlar və digər tədbirləri təşkil edir;
2. Respublika daxili təcrübələrin tətbiqi imkanlarının araşdırılması məqsədilə digər universitetlərlə, təşkilatlarla, aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq edir, onların müvafiq təcrübəsini öyrənir;
3. Qabaqcıl təcrübəni nəzərə almaqla, monitorinq sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin edir;
4. Universitetdə daxili keyfiyyət təminatı sistemlərinin fəaliyyətini dəyərləndirmək və onların təkmilləşdirilməsi istiqamətində təkliflər verir;
5. Təhsil proqramlarının monitorinqi ilə bağlı təhlillər və ümumiləşdirmələr aparır və analitik materiallar hazırlayır;
6. Təhsil proqramlarının monitorinqi ilə bağlı (hər bir təqvim ili üzrə) fəaliyyət planı hazırlayır və təsdiqdən sonra rəsmi internet səhifəsində yerləşdirir;
7. Monitorinqin aparılmasından öncə müvafiq strukturu məlumatlandırır;
8. Məsul strukturun təqdim etdiyi hesabata və ona əlavə olunan sənədlərə baxır və çatışmazlıqlar barədə rəhbərliyi məlumatlandırır;
9. Keyfiyyət təminatı komissiyasını, eləcə də Komissiyanın sədrini təyin edilməsi üçün rəhbərliyə təklif verir;
10. Monitorinq qiymətləndirilməsi çərçivəsində vəzifələrini yerinə yetirmək üçün bütün müvafiq sənədləri və məlumatları toplayır;
11. Məsul struktur ilə hesabatı müzakirə edir;
12. Elmi Şuranın qərarından sonra hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair məsul struktur tərəfindən rəhbərliklə razılaşdırılaraq təsdiq olunan fəaliyyət planının icrasına nəzarət edir;

Təhsil proqramlarının monitorinqinin Azərbaycan Respublikasının Təhsil haqqında qanununa, Universitet rəhbərliyinin əmr və sərəncamlarına, Keyfiyyət təminatı komissiyasının Əsasnaməsinə, Keyfiyyət siyasəti sənədinə, Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsinə, Keyfiyyət təminat şöbəsinin illik fəaliyyət planına, Təhsil proqramının monitorinqi strategiyasına və digər müvafiq qaydaların tələblərinə uyğunluğunun təmin olunmasına nəzarət Keyfiyyət təminatı şöbəsinin müdiri (monitorinq üzrə koordinator) tərəfindən həyata keçirilir.

**Keyfiyyət təminatı şöbəsinin müdiri (Koordinator) monitorinq üzrə aşağıdakı hərəkətləri yerinə yetirir:**

"Təhsil proqramlarının monitorinqi strategiyası" çərçivəsində təhsil proqramlarının monitorinqini aparır;

- peşəkarlıq və nəzakətlilik nümayiş etdirir, proses əsnasında yarana biləcək münaqişələri həll edir, ünsiyyətdə qarşılıqlı hörmət və anlayış prinsiplərini əsas tutur və peşəkar danışıq dilinə üstünlük verir;
- Keyfiyyət təminatı komissiyasının obyektiv təhlil aparması üçün mütəxəssislərin ehtiyacı olan məlumat və sənədlərin strukturdan əldə edilməsinə köməklik göstərir;
- Monitorinqin rahat, obyektiv, qərəzsiz, səmərəli və "Təhsil proqramlarının monitorinqi strategiyası"na, Keyfiyyət təminatı komissiyasının Əsasnaməsinə, Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsinə və digər müvafiq qanunvericiliyin tələblərinə uyğunluğunun həyata keçirilməsinə nəzarət edir;

Keyfiyyət təminat şöbəsinin illik fəaliyyət planına, Təhsil proqramının monitorinqi strategiyasına və digər müvafiq qaydaların tələblərinə uyğunluğunun təmin olunmasına nəzarət Keyfiyyət təminatı şöbəsinin müdiri (monitorinq üzrə koordinator) tərəfindən həyata keçirilir.

**Keyfiyyət təminatı şöbəsinin müdiri (Koordinator) monitorinq üzrə aşağıdakı hərəkətləri yerinə yetirir:**

"Təhsil proqramlarının monitorinqi strategiyası" çərçivəsində təhsil proqramlarının monitorinqini aparır;

- peşəkarlıq və nəzakətlilik nümayiş etdirir, proses əsnasında yarana biləcək münaqişələri həll edir, ünsiyyətdə qarşılıqlı hörmət və anlayış prinsiplərini əsas tutur və peşəkar danışıq dilinə üstünlük verir;
- Keyfiyyət təminatı komissiyasının obyektiv təhlil aparması üçün mütəxəssislərin ehtiyacı olan məlumat və sənədlərin strukturdan əldə edilməsinə köməklik göstərir;
- Monitorinqin rahat, obyektiv, qərəzsiz, səmərəli və "Təhsil proqramlarının monitorinqi strategiyası"na, Keyfiyyət təminatı komissiyasının Əsasnaməsinə, Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsinə və digər müvafiq qanunvericiliyin tələblərinə uyğunluğunun həyata keçirilməsinə nəzarət edir;
- Monitorinqi aparılan struktur ilə Keyfiyyət təminatı komissiyasının tərkibinə daxil olan mütəxəssislər (komissiyanın sədri və üzvləri) arasında əlaqələndirici rolu oynayır və qiymətləndirmə prosesinin öncədən təqdim edilmiş fəaliyyət planına uyğun icrasına nəzarət edir;
- Keyfiyyət təminatı komissiyasının müvafiq qanunvericilik çərçivəsində fəaliyyətini, üzvlərə qiymətləndirmə üçün lazım olan məlumat və sənədlərin vaxtında və tələb olunan keyfiyyətdə strukturdan təqdim olunmasını, Keyfiyyət təminatı komissiyası üçün lazımi şəraitin yaradılmasını təmin edir;
- Keyfiyyət təminatı komissiyasının yerində monitorinq qiymətləndirilməsi zamanı nəzərdə tutulan görüşlərində iştirak edir;
- Keyfiyyət təminatı komissiyasının iclaslarının protokollaşmasına nəzarəti, eləcə də müvafiq protokolların arxivləşdirilməsini həyata keçirir;
- Məsul struktur tərəfindən təqdim olunan sənədlərin Keyfiyyət təminatı komissiyasına təhvil vermədən öncə tələblərə uyğunluğunu yoxlayır. Tələblərə uyğun olmayan sənədləri struktura geri qaytarır və müvafiq düzəlişlərin olunmasına nəzarət edir;
- Monitorinq prosesi zamanı ortaya çıxan bir sıra məsələlərin hüquqi istiqamətdə araşdırılaraq rəy verilməsi üçün universitetin hüquqşunasına müraciət edir;
- Mübahisəli məsələlərdə hesabatlarda müvafiq düzəlişlərin olunmasına və müəyyən olunmuş zamana qədər Elmi Şuraya təqdim olunmasına nəzarət edir, yekun qərarın verilməsi üçün müvafiq addımları atır.

Qaydaların tələblərinə uyğun olaraq universitet üzrə monitorinq prosesinin aparılmasını, o cümlədən həmin strukturda akkreditasiya nəzərdə tutulduğu halda Akkreditasiya Qaydaları və digər normativ qaydalara əsasən bütün lazımi fəaliyyətləri həyata keçirir.

## TƏHSİL PROQRAMLARININ MONİTORİNQİNİN APARILMASI PROSESİ VƏ MƏRHƏLƏLƏRİ

### Monitorinqin aparılması prosesi

Monitorinqin keçirilməsi ilə əlaqədar struktur bölmənin məsul şəxsi (strukturun rəhbəri) məsələ ilə bağlı cavabdehlik daşıyır.

Məsul struktur monitorinq prosesinin əsas tərəflərindən biri olaraq aşağıdakı fəaliyyətləri həyata keçirir:

-Müəyyən olunmuş reqlament üzrə məlumatları toplayır;

-Sənədlərin və hesabatların elektron surətini müvafiq qaydada hazırlayır;

-Təhsil proqramının monitorinqinin keçirilməsi barədə məlumatı aldıqdan sonra məsul struktur müvafiq məlumatları nəzərdə tutulan müddətdə Keyfiyyət təminatı şöbəsinə təqdim edir.

Monitorinq keçirilməsi barədə məlumat aldıqdan sonra Keyfiyyət təminatı şöbəsinə təqdim olunmalı sənədlər:

1. Müvafiq strukturun əsasnaməsi;
2. Fəaliyyət planı;
3. Hesabat və ona əlavə olunan sənədlər;
4. Kafedranın elmi (pedaqoji) fəaliyyəti, tədris prosesinə dair məlumatlar və digər müvafiq sənədlər;
5. Kafedra əməkdaşlarının son 5 ildə nəşr olunan fənn proqramları və cari ilin sillabusları;
6. Monitorinq olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu haqqında əmrlər;
7. Təhsilalanların yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
8. Akademik (pedaqoji) heyətin siyahısı, professor-müəllim heyətinin şəxsi uçot məlumatları;
9. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
10. Proqramlar üzrə yekun attestasiyasının və imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
11. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa).

Müvafiq srtukturlar tərəfindən monitorinqə aid təqdim olunacaq əlavə sənəd və hesabatlar:

- Mərkəz və şöbələr üzrə

- Mərkəz və şöbələrin yaranması haqqında əmrin surəti
- Mərkəz və şöbələrin əsasnaməsi
- Mərkəz və şöbələrin illik iş planı
- Təhsil proqramları
- Tədris planları
- Tədris yüklərinin bir nüsxəsi
- Hesabatlar
- Dövlət Attestasiya Komissiyasının iclaslarının protokol və hesabatları
- Son 5 (beş) ilin imtahan sessiyasının nəticələri
- Tədrisə dair əmrlərin nüsxələri
- Məzunların dövlət attestasiyasından müvafiq qaydada qiymətləndirilməsi barədə komissiya sədrlərinin hesabatları

- Fakültə üzrə

- Fakültənin yaranması haqqında əmrin surəti
- Fakültənin əsasnaməsi
- Fakültənin illik iş planı
- Dekan və dekan müavinlərinin iş planları

- Fakültə dekanın illik hesabatı
- Fakültə elmi şurasının iş planı (hər yarımil üçün)
- Fakültə elmi şura iclaslarının protokolları
- Tələbələrin fərdi tədris planı-forma 4
- Tələbə qəbulu barədə əmrlər
- Tələbələrin kredit borclarına aid təqdimat və əmrlər
- Kafedralara verilən dərs yükü
- Müəllimlərin açıq dərslərinin qrafiki
- İxtisaslar üzrə bütün kurslar üçün semestr imtahanlarının nəticələri
- Tələbələrin son 5 ildə semestr imtahan sessiyasında imtahan qiymətlərinin inkişaf dinamikası
- Tələbələr arasında anonim sorğu
- Tədris qrafiki (forma 2)
- İxtisas üzrə illik işçi tədris planı (forma 3)
- Dərs cədvəlləri

- Kafedra üzrə

- Kafedranın yaranması haqqında əmrin surəti
- Kafedranın pasportu
- Kafedranın əsasnaməsi
- Kafedranın illik iş planı
- Kafedranın ştat cədvəli
- Kafedranın müdirinin illik iş planı
- Kafedranın dərs yükü və dərs yükünün bölgüsü
- Müəllimlərin fərdi iş planı (illik)
- Fənn proqramları və sillabuslar
- Kafedra müdirinin tədrisə nəzarət jurnalı
- Kafedra iclaslarının protokolları və qeydiyyat kitabı
- Elmi-tədqiqat hesabatları
- Təcrübələrin əmrləri, proqramları və hesabatları
- Buraxılış işləri, magistrlik dissertasiyalarının mövzularının təsdiq olunmuş siyahıları, Fakültə Elmi Şuralarının protokollardan çaxarışlar və kafedranın protokolları
- Akademik heyətin təkmilləşdirmə və ixtisasartırma kurslarında iştirakı vəziyyəti haqqında məlumatlar (mobillik proqramları daxil olmaqla)
- Elmi seminarlar haqqında məlumat
- Dərslik, dərs vəsaitləri, tədris-metodiki vəsaitləri və moqrafiya haqqında məlumat
- Əvəzçilər və saathesabı qaydada cəlb olunanlar haqqında məlumat
- Aidiyyatı üzrə qovluqların (əmr, protokol və s.) tərtibi və saxlanması vəziyyəti
- Mühazirə mətnləri və onların elektron variantı
- Laboratoriya işlərinin təsviri və electron variantı
- Magistr dissertasiyalarının elektron variantı
- Doktorant və dissertantların fərdi iş planları, attestasiya sənədləri
- Saytdakı kafedra səhifəsi
- Kafedranın hər bir əməkdaşının şəxsi iş qovluğu
- Kompetensiya xəritəsi
- Kafedra nəzdindəki ETL-lər, ETM-lər və tədris laboratoriyaları

- tələbələrin elmi-tədqiqat işlərinin hazırlıq vəziyyəti, TEC-in konfransı və s. məsələlər müzakirəsi
- Açıq dərslərin təsdiqlənmiş cədvəli, qiymətləndirmə meyar formaları və protokolları

**Monitorinq prosesi aşağıdakı mərhələlərdən ibarətdir:**

1) müsahibələr:
- struktur vahidlərinin rəhbər işçiləri;
- təhsil proqramının professor-müəllim heyətinin üzvləri;
- tələbələr;
- məzunlar;
- işəgötürənlərin nümayəndələri;

2) məsul strukturun infrastrukturuna (auditoriyalar, laboratoriyalar, kitabxana və s.) baxış;
3) təhsil proqramına cavabdeh olan məsul strukturun təqdim etdiyi sənədlərin nümunələri;
4) təhsil fəaliyyətlərinin müşahidəsi (mühazirələr, seminarlar, laboratoriya məşğələlər, təcrübələr və s.).

Müsahibələr zamanı bütün monitorinq qrupu üzvlərinin qeyd götürməsi tövsiyə edilir. Monitorinq qrupunun üzvləri monitorinq nəticələrini müzakirə etməli, meyarlara dair ortaq məxrəcə gəlməli, eləcə də monitorinq ərzində əldə olunan məlumatları və əsas nəticələri təhlil etməlidirlər. Təhsil proqramlarının monitorinqi zamanı təqdim olunan sənədlərin araşdırılması, təhlil edilməsi və məlumatların üzləşdirilməsinin nəticələri əsasında arayış hazırlanır.

Məsul struktur tərəfindən təqdim olunan məlumat və sənədlər Keyfiyyət təminatı komissiyasına tələb olunan qaydada təhvil verildikdən sonra monitorinqin təhlilinin aparılması üçün öz mütəxəssisləri arasında iş bölgüsü edir, bununla bağlı arayış hazırlayır və bu arayışın müzakirə edilməsi üçün Universitetin Elmi Şurasına təqdim edir.

Təhsil proqramlarının monitorinq qiymətləndirməsinə dair təqdim olunan sənədlərin araşdırılması, təhlil edilməsi və məlumatların üzləşdirilməsi nəticəsində əldə olunan arayış və məsul strukturun hesabatı "qənaətbəxş" və ya "qeyri qənaətbəxş" olması barədə qiymətləndirməni Elmi Şuranın müzakirəsinə təqdim edir. Komissiyanın təqdim etdiyi hesabat və arayış Elmi Şura tərəfindən qiymətləndirilir.

## YEKUN QƏRAR

**Elmi Şura monitorinq prosesini aşağıdakı kimi qiymətləndirir:**

1. Təqdim edilmiş Hesabatların müzakirəsini həyata keçirir;
2. Ehtiyac oluqda Hesabatların müzakirəsinə məsul struktur bölmələri, Keyfiyyət təminatı komissiyasını, eləcə də müstəqil mütəxəssisləri dəvət edir;
3. Müzakirənin nəticələrindən asılı olaraq müvafiq yekun qərar verir;
4. Təqdim edilmiş hesabat yetərli olmadıqda onu yenidən işlənməsi üçün Komissiyaya geri qaytarır;
5. Keyfiyyət təminatı komissiyasını və monitorinq keçirilən strukturun nümayəndələrini dinləyir;

Yekun qərar monitorinq strategiyasında nəzərdə tutulmuş sənədlərin araşdırılması, yerlərdə aparılmış müşahidələrin və təhlilin, məsul strukturun bütün fəaliyyət istiqamətləri üzrə, o

cümlədən akademik heyət, təhsilalanlar, məzunlar və əmək bazarının nümayəndələri ilə müsahibələrin, Universitetin fəaliyyətində maraqlı şəxslər (təhsilalanlar, məzunlar, müəssisənin işçi heyəti, işəgötürənlər və s.) arasında keçirilmiş rəy sorğuları nəzərə alınmaqla Elmi şurada müzakirə edildikdən sonra rektor tərəfindən təsdiqlənir.

Monitorinqin nəticəsi olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2024-cü il 7 sentyabr tarixli 417 nömrəli Qərarı ilə təsdiq edilmiş Lənkəran Dövlət Universitetinin Nizamnaməsi və Universitetin Daxili İntizam Qaydalarına uyğun olaraq ehtiyat, intizam, rəğbətləndirmə, islahedici və gücləndirici tədbirlər görülür.

Monitorinq üzrə illik fəaliyyət planının nümunəvi forması ____________ Əlavə 1

Təsdiq edirəm:

Rektor ____________ ________

"______" ____________________

**Lənkəran Dövlət Universiteti**

**Keyfiyyət Təminatı şöbəsinin _____/_____-ci tədris ili üçün**

**Təhsil proqramları monitorinqi üzrə**

**Fəaliyyət Planı**

| **Meyar** | **İcra ediləcək fəaliyyət** | **İcra yolları** | **İcra müddəti** *(başlanma və bitmə tarixi)* | **Hədəf indikatoru** | **Nəticə indikatoru** | **İcra vəziyyəti** *(icra olunub, icra olunmayıb, icradadır)* | **Fəaliyyətin icrası üçün ayrılan resurs(lar)** *(İnsan, maliyyə, infrastruktur və s.)* | **Qeyd** |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |

__________ şöbədə (kafedrada, dekanlıqda və s.)____________________monitorinq keçirilməsi haqqında

AKT

_________ şəhəri __________ 20____-cü il

Biz, aşağıda imza edənlər

Keyfiyyət Komissiyasının sədri ______________________________________________,

üzvləri__________________________________________________________________

__________________________________________________________________________

__________________________________________________________________________

__________________________________________________________________________

__________________________________________________________________________

__________________________________________________________________________

və şöbənin (kafedranın, dekanlığın və s.) rəhbəri ____________________________________________________

bu aktı tərtib etdik ondan ötrü ki, şöbənin ______________________________ təhsil proqramının yoxlanılması məqsədilə_______________202___-cü il tarixində yerində/məsafədən monitorinqi həyata keçirilmişdir (nəticə əlavə olunur).

Akt 2 (iki) nüsxədə tərtib olunmaqla Keyfiyyət təminatı şöbəsi və __________________________ şöbədə saxlanılır.

Qoşma: ____ (________________) vərəq.

Aktın doğruluğunu imzalarımızla təsdiq edirik:

1.

2.

3.

4.

5.

Təhsil proqramının monitorinqi çərçivəsində Keyfiyyət təminatı komissiyasının professor-müəllim heyəti, struktur bölmə rəhbərləri, tələbə və

məzunlar ilə keçirdiyi müsahibənin

PROTOKOLU No: ___

________ şəhəri ___________ 20__-cü il

Görüş haqqında ümumi məlumat:

______________________________________________

Keyfiyyət təminatı komissiyasına sədrlik edirdi:

______________________________________________

Keyfiyyət təminatı komissiyasının digər üzvləri:

______________________________________________

Struktur tərəfindən iştirak edirdi:

______________________________________________

AZ4200, Lənkəran, Azərbaycan,

General Həzi Aslanov 50

Telefon: (+99425)2582588

E-poçt: Office@lsu.edu.az

www.lsu.edu.az